# "Kitabi-Dədə Qorqud" dastanı milli-mənəvi abidələrimizdən biri kimi

**Şirinbəyim Mürşüd qızı Nadirova**
*Bakı Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** shirin.oruclu@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. L.N. Qasımova,
p.ü.e.d., dos. E.P. Mollayeva

**Açar sözlər:** yeniyetmə, milli-mənəvi dəyərlər, tərbiyə, xalq, dastanlar, abidə
**Ключевые слова:** подросток, национальные моральные ценности, воспитание, народ, эпосы, памятник
**Key words:** teenager, national-moral values, upbringing, people, epics, monument

"Kitabi-Dədə Qorqud" Azərbaycan türklərinin ulu babası oğuzların əfsanəvi və tarixi keçmişini əks etdirən "Oğuznamə"lərdən biridir. Türk xalqlarının yaratdığı milli mədəniyyətin ən ulu, ən möhtəşəm və zəngin qaynaqlarından olan "Kitabi-Dədə Qorqud" da oğuzların həyatı elə-obaya, ata-anaya, bacı-qardaşa məhəbbəti, hərbi yürüşləri, adət və ənənələri, inam və görüşləri, alqış və qarğışları, bir sözlə, bütün mənəviyyatları bədii ifadəsini tapmışdır. "Kitabi-Dədə Qorqud" həm də pedaqogika elminin tükənməz mənbəyidir.

"Kitabi-Dədə Qorqud" həm bir dastan, həm də bir milli (ana) kitab - epos kimi Azərbaycan ədəbi-estetik düşüncəsinin ilkin qaynağıdır. Bu baxımdan, müasir Azərbaycan ədəbiyyatı da öz poetik kökləri etibarilə birbaşa bu eposa bağlanır. Bu, ilk növbədə dastanın ədəbi-bədii abidə olması ilə bağlıdır.

Müasir Azərbaycan ədəbiyyatı öz ədəbi-estetik başlanğıcı etibarilə "Kitabi-Dədə Qorqud" eposu ilə birbaşa bağlıdır. Bu da öz növbəsində "Kitabi-Dədə Qorqud" və müasir Azərbaycan ədəbiyyatı problemini geniş kontekstdə götürməyə imkan verir. Epos XX əsrin birinci yarısında Azərbaycanda çap edilib məşhurlaşsa da, o, "etnopoetik ruh" (yaxud "Qorqud" ədəbi ruhu), ədəbi düşüncənin arxetipik əsası kimi müasir ədəbi düşüncənin dərin qatlarında həmişə var olmuşdur. Yəni eposun müasir ədəbiyyata təsirini XX əsrin birinci yarısından başlamaq, əslində, onun bizim milli ədəbi düşüncəyə "kənardan gəldiyini" qəbul etmək və milli ədəbi-estetik düşüncə tariximizdə "Dədə Qorqud" ənənələrini inkar etmək deməkdir. Həqiqətdə isə bu epos qədim dövrlərdən (ilkin başlanğıcdan) günümüzə qədər uzun və fasiləsiz bir yol qət etmişdir. Həmin yolun böyük bir mərhələsini qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı təşkil edir. Bu dövr ədəbiyyatı "Kitabi-Dədə Qorqud"la müasir ədəbiyyatımız arasında bir körpü rolunu oynamışdır.

"Kitabi-Dədə Qorqud"un Azərbaycan ədəbiyyatı tarixinə təsiri davamlı olmuş, ədəbi düşüncə bütün tarixi boyunca prof. N. Araslının "el zəkasını və xalqın mənəvi gücünü təmsil edən ümumiləşmiş obraz kimi xalq yaradıcılığında abidələşmiş, şifahi və yazılı ədəbiyyatımızda canlanan müdrik bilici, aqil yolgöstərən, el ağsaqqalı obrazının ən əski prototipi" hesab etdiyi Dədə Qorqud obrazından ədəbi-estetik güc - ruhani-poetik enerji almışdır.

Azərbaycan etnik-ədəbi, milli-estetik düşüncəsinin mayası, bünövrəsi, milli ədəbiyyatının qaynağı və mərhələsi olan "Dədə Qorqud" eposu ədəbi-bədii enerji qaynağı kimi həmişə Azərbaycanın milli varlığının ruhunda var olmuşdur. Orta əsrlərdən eposun canlı ifaçılıq döv-

riyyəsindən çıxması onu aktual milli yaddaşdan tədricən tarixi milli yaddaşa keçirdi. Əsrlərin, qərinələrin dialektikası öz işini gördü: epos tarixi yaddaşdan da arxaik yaddaşa endi. Arxaik yaddaş hər bir xalq üçün onun düşüncəsinin genetik simvolikası, arxetipik energetikası deməkdir. Bu, milli yaddaşın enerji qaynağıdır. Həmin qaynaq aramsız şəkildə müasir milli-ədəbi, etnik-bədii düşüncəni qidalandırmaqda davam edir. Mədəniyyətin daşıyıcıları əsrlər boyu bu enerji ilə yaşayır, lakin onun konkret ünvanını, mənbəyini bilmirlər. “Kitabi-Dədə Qorqud”un tapılması Azərbaycan milli düşüncəsində sanki bir şok effekti yaratdı. Nəyə görə? Çünki “Kitabi-Dədə Qorqud” ulu öndər Heydər Əliyevin bəyan etdiyi kimi, “Azərbaycan xalqının tarixinin, etnik yaddaşının, arxaik təfəkkürünün güzgüsü”, “nitqimizin, dilimizin, mənəviyyatımızın, ruhumuzun nəğməsi” idi. Xalq bu dastanın “güzgüsündə” özünün bolşeviklərin təqdim etdiyindən tamamilə fərqli, əsil milli simasını gördü, bu dastanın epoxaların dərinliyindən gələn “səsində” bolşeviklərin azərbaycanlıların milli ruhuna tamamilə yad olan “proletar” himnindən fərqli olub, xalqın milli ruhunu coşduran doğma “nəğməni” eşitdi. Azərbaycan ziyalıları milli düşüncənin energetik qaynağına birbaşa qoşulmaq imkanı əldə etdi. Eposun Azərbaycanda çap olunması ilə milli şüurun coşqun oyanışı, dirçəlişi başlandı. Azərbaycan xalqı “Kitabi-Dədə Qorqud” dastanında qorunub qalmış millilik sxemləri, milli birlik formulları, etnik vəhdətin düsturları əsasında yenidən təşkil olunmağa başladı. Ədəbiyyat bu milli coşquda misilsiz rol oynadı.

“Kitabi-Dədə Qorqud”, “Koroğlu” və digər dastanlarımız da xalq ədəbiyyatı kimi qəbul olunurdu. Lakin “Dədə Qorqud” eposunun birbaşa milli ideologiya ilə bağlı olması, Azərbaycan xalqında kimlik ideyalarını coşdurması, etnik-siyasi tarixlə birbaşa bağlılığı və bununla da sovet xalqının yaradılması ideyasına zidd olması ona münasibəti dəyişdi. Heç təsadüfi deyildir ki, iki böyük dastandan – “Kitabi-Dədə Qorqud” və “Koroğlu”dan daha çox birincisi təqibə məruz qaldı. “Koroğlu” dastanı “Dədə Qorqud” qədər təqib olunmadı: onun üzərində başqa xarakterli əməliyyatlar aparıldı. Dastanda Koroğlunun sosial ədalət uğrunda apardığı mübarizə Azərbaycan xalqının Türkiyəyə, “türk işğalçılarına” qarşı mübarizəsi kimi redaktə edildi. Lakin “Kitabi-Dədə Qorqud”un kristal poetik quruluşu belə bir əməliyyatı aparmağa imkan vermədi. Çünki burada oğuz babalarımız onların torpağına soxulmuş “sası” (murdar - Y.Ġ.) dinli yağılara” qarşı mübarizə aparırlar.

Bu tarixi salnamədə ər-arvad, oğul-ata, qız-ana, qaynana-qaynata kimi mürəkkəb və çoxcəhətli ailə münasibətləri çulğalaşır.

Oğuzlarda əxlaqi-mənəvi keyfiyyətlərin əsası ailədə qoyulur. Uşaq böyüdükcə ailədə aldığı tərbiyə cəmiyyətdə cilalanır. Akif Abbasov yazır: “Bu bir həqiqətdir ki, insanın necə təşəkkül tapacağı, onun həyatda hansı mövqe tutacağı ailə tərbiyəsindən, anaların valideynlik və tərbiyəçilik funksiyalarını nə şəkildə yerinə yetirmələrindən çox asılıdır”. Bu mənada Oğuzlar öz övladlarını yersiz əzizləmir, onu çətinliklərə salır, sınağa çəkirdilər. Bu, uşağı əlabaxımlıqdan, tənbəllikdən, zəhmətə xor baxmaqdan, çətinlik qarşısında özünü itirməməkdən, qorxaqlıqdan qoruyur. Onu mübarizlik, cəsurluq, diribaşlıq, çeviklik, igidlik, mərdlik və s. bu kimi nəcib sifətlər aşılayır.

Oğuz gənclərinə, oğuz insanına məhz bu kimi sifətlər xasdır. Oğuzlarda tərbiyə məsələlərinin qoyuluşu öz mahiyyəti və əhəmiyyəti etibarilə bu günkü cəmiyyətimizdə də aktualdır. Bu gün müasir pedaqogikada, təlim-tərbiyə nəzəriyyəsində rəğbətləndirmə, həvəsləndirmə, mükafatlandırma metodları ilə tez-tez rastlaşırıq. Pedaqoqlar, psixoloqlar, istər ailədə, istərsə də məktəbdə uşaqların təlim-tərbiyəsində bu metodlardan bəhrələnməyi tövsiyə edirlər. Bildirirlər ki, həvəsləndirmə, mükafatlandırma nailiyyətlərin, uğurların sırasını genişləndirməklə, təlim-tərbiyə prosesində müstəsna rola malikdir. “Kitabi-Dədə Qorqud” dastanında Oğuz

gənclərinin təlim-tərbiyəsinə məhz bu cür yanaşmanın şahidi oluruq. Onlar gəncləri əvvəlcə çətinliyə salırlar. Çətin şəraitdə fiziki imkanlara yiyələndirirlər. Sonra onların fiziki imkanlarını nümayiş etdirdikdən sonra rəğbətləndirilir, mükafatlandırılırlar. Dastanda oxuyuruq:

Hey Dirsə xan! Oğlana bəylik ver,
Taxt ver,- güclüdür, ərdəmlidir!
Boynu uzun bədəvi at ver,
Qoy minsin, hünərlidir.
... Yaylağından on qoyun ver,
Bu oğlana şişlik olsun, cüssəlidir
Qaytabandan qızılı dəvə ver
Bu oğlana qoy yükləsin, hünərlidir!

Burada məmləkətə rəhbərlik edən şəxsin igidlik, qəhrəmanlıq göstərən gəncin əməlinə verilən yüksək qiymətin şahidi oluruq. Müasir dövrümüzdə də belədir. Ölkə başçısı müxtəlif yarışlarda ölkəni ləyaqətlə təmsil edən, onun adına şərəf gətirən şəxsləri rəğbətləndirməklə onların fəaliyyətinə stimul verir, yeni-yeni nailiyyətlərin qazanılmasına yol açır.

Oğuz cəmiyyətində ən ali ictimai qurum hesab edilən ailənin təməlində Tanrı duası, peyğəmbər rizası dayanır. Onlar hesab edirdilər ki, yalnız müqəddəs xeyir-dua ilə qurulan ailələrdə sağlam övlad dünyaya gətirmək, böyütmək, cəmiyyətə təqdim etmək olar. Ərə gedən qızın isməti, namusu, arı hər şeydən uca tutulur. Ailə quran oğlanlar öz sevgililərini ismətli, bakirə görmək istəyirlər. Dastanda Bamsı Beyrəyin dilindən eşitdiyimiz "Eyibli ərə getmək eyibdir ər evinə" [56,163] buna misal ola bilər. Müraciətdə onu da görmək mümkündür ki, oğuzlar ailə ittifaqına dar mənada yanaşmırlar. Oğuz cəmiyyətində xas olan ailə ənənələri müasir dövrümüz üçün səciyyəvidir. Əgər yeni ailələrin qurulmasında, övlad tərbiyəsində, qayınata-qayınana münasibətlərində ona istinad olunursa, cəmiyyət bundan çox böyük fayda götürər. Yeni qurulan ailə tayfa birliyinin, qəbilə ittifaqının genişlənməsinə, nəsil-şəcərənin böyüməsinə, qohumluq əlaqələrinin inkişaf etməsinə zəmin yaratmalıdır. Ümumiyyətlə, qohum-qəbilə münasibətləri Oğuzların mənəvi tərbiyəsində ön planda dayanır: "Salur Qazanın evinin yağmalandığı boy"da Qazan xanın dilindən oxuyuruq:

Qohum-qəbiləli komam-yurdum!
Qulanla sığın-keyikə qonşu yurdum!
Səni düşmən haradan talayıb, gözəl yurdum!
Uca evimin tikilisi, yurdu qalmış,
Qoca anamın oturduğu yer də qalmış.
Oğlum Uruzun ox atdığı nişan qalmış.
Bəylərin at çapdırdığı meydan qalmış,
Qara mətbəxin yerində ocaq qalmış.

Oğuz ərləri öz qadınlarını "aslan nəsli, sultan qızı" hesab edirlər. "Öz canıma qıyaram, sənə qıymaram" — deyə, öz qadınları yolunda hər cür fədakarlığa hazırdırlar. Oğuz elində evin qızı ilə gəlininə fərq qoyulmur, "anam gəlin, qızım gəlin"-deyə, gəlinə doğma qızı kimi yanaşırlar. Gəlinlər isə "atamdan yaxşı qayınata", "anamdan yaxşı qaynana", -deyə qayınatanı doğma atadan, qaynananı doğma anadan üstün tuturlar. Belə gəlinin tərbiyəsi qız hələ ata evində ikən başlanır. Onun əsas tərbiyəçisi anadır. Çünki "qız anadan görməyincə öyüd al-

maz”. Oğuz elində övlad arzusu çox güclüdür; fərqi yoxdur, qız-oğlan, təki ailədə övlad olsun.

Oğuz elində deyirlər ki, “ərin ağzının kəsərini at bilər”. ”Ər comərdini, ər namərdini ozan bilər”. Ərləri üçün oğuz qadınları hər cür fədakarlığa hazırdırlar. “Duxa qoca oğlu Dəli Domrul boyu”nda Dəli Domrulla Əzrayılın görüşdüyü səhnə buna ən yaxşı misaldır. Oğuz qadınları üçün “ər qızıl taxtın yiyəsidir”, “bəy igiddir, igid bəydir”, “öyünərsə, ər öyünsün-aslandır”, “ər padşahdır”. “Padşahlar-Allahın kölgəsidir”. Oğul arzusunda olan ata-ana onun tərbiyəsini önə çəkir. Oğlu “atanın yetirməsi”, “ocağın gözü”, “ata evinin dirəyi”, “iki gözün biri”, “uca dağın zirvəsi”, “coşqun suların daşqını” hesab edirlər. Oğuz elində “ata malından nə fayda, başda ağıl olmasa” deyə hər cür oğul yox, ağıllı oğul tərbiyə edirlər. “Ata adını ucalmayan fərsiz oğul ata belindən enincə, enməsə yaxşıdır, ana bətninə düşüncə, doğulmasa yaxşıdır”. “Ata adını yaşatmaq üçün ağıllı oğul yaxşıdır.”

Ümumiyyətlə, “Kitabi-Dədə Qorqud” dastanın pedaqoji mahiyyəti, tərbiyəvi təsir qüvvəsi dastan boyu sətirbəsətir hiss olunur. Onun öyrədicilik, təlqinedicilik qüvvəsi istər dini-mənəvi dəyərlərə münasibətində, istərsə də ailəyə, dostluğa, vətənə, yoldaşa yanaşmada eyniyyət təşkil edir.

Dastanda bəhs edilən ata-ana, valideyn-övlad, ər-arvad məhəbbəti bu gün üçün də böyük tərbiyəvi əhəmiyyət daşıyır. Ata-analarına, vətəninə Oğuz igidləri kimi layiqli münasibət bəsləyən gənclərimiz müasir cəmiyyətimizdə də çoxdur. Belə gənclər cəmiyyətimiz üçün də faydalı insanlardır.

“Kitabi-Dədə Qorqud” dastanında adət-ənənələrə, el-obaya, doğma torpağa, xalqa dərin məhəbbət və sevgi hissinin qabarıq şəkildə əks olunması da mühüm tərbiyəvi təsirə malikdir.

“Kitabi-Dədə Qorqud” dastanının aşıladığı mühüm mənəvi keyfiyyətlərdən biri də böyüyə-ağsaqqala, ağbirçəyə, rəhbərə, müdrik və ağıllı şəxslərə, qadına, anaya, ataya hörmətdir. Birmənalı olaraq demək olar ki, bu hiss dastanın bütün məzmunu boyunca aparıcı xətlərdən birini təşkil edir. İnsanın mənəvi kamilliyini göstərən böyüyə hörmət kimi mühüm keyfiyyət pedaqoji cəhətdən də səciyyəvidir. Dastanda böyüyə hörmət məsələlərinin inikasına həm ailədə, həm də cəmiyyətdə rast gəlmək mümkündür. Oğuz cəmiyyətinin xarakterik cəhətlərindən biri də məhz budur. Burada mənəvi tərbiyə məsələlərinin qoyuluşunu təhlil etdikdə belə nəticəyə gəlmək mümkündür ki, Oğuz ailəsində tərbiyə işi cəmiyyətin tələbləri səviyyəsində aparılır. Eləcə də cəmiyyət sosial sifariş olaraq Oğuz ailəsinin mənəvi tələblərinə uyğun idarə olunur. Böyüyə hörmət hər bir kəsin mənəvi borcu kimi qəbul edilir.

Qəhrəman və cəmiyyət münasibətləri ümumiyyətlə geniş və mürəkkəb problemdir. Məsələnin genişliyi və mürəkkəbliyi tarixi, etnik, sosial və mədəni amillərin vəhdətindən yaranır. Əvvəla, qəhrəman və cəmiyyət münasibətləri tarixən dəyişən hadisədir. Tarixin hər bir dövründə cəmiyyətin öz qəhrəmanları olur və onların münasibətləri dastan yaradıcılığında da əks olunur. “Kitabi-Dədə Qorqud” oğuzların epik abidəsidir. Bu dastandakı bütün qəhrəmanlar və onları birləşdirən, ümumiləşdirən tipoloji model oğuz cəmiyyətinin qəhrəman haqqında düşüncə və təsəvvürlərini əks etdirir. Oğuzlar bir türk xalqı kimi çox qədim tarixə malikdirlər.

Oğuz cəmiyyətində çoxlu qəhrəmanlar olmuş, onlar xalqın, elin, yurdun və Oğuz dövlətinin yolunda möhtəşəm qəhrəmanlıqlar göstərmiş, Oğuz elini məhv olmağa qoymamışlar. Oğuzlar göstərdikləri igidliklər sayəsində nəinki özlərini qorumuş, eyni zamanda tarix səhnəsində böyük dövlətlər qurmuşlar. Oğuz cəmiyyəti daim öz qəhrəmanlarını sevmiş, onların haqqında şeirlər, mahnılar, dastanlar qoşmuşlar. “Kitabi-Dədə Qorqud”da bir qəhrəmanlıq dastanı kimi belə qəhrəmanlıq nəğmə və əhvalatlarından yoğrularaq möhtəşəm dastan, milli tarix halına gəlmişdir.

“Kitabi-Dədə Qorqud” dastanının bütün boylarında qarşıya qoyulan əsas məqsəd vətəni

qorumaq, onun bütövlüyünü, istiqlaliyyətini xarici və daxili sarsıntılardan müdafiə etməkdən ibarətdir. Oğuz elinin igidləri məmləkətin talan olmaması, qız-gəlinin, oğul-uşağın əsir getməməsi üçün daim onun keşiyində durmuş, ölkənin bol sərvətinin talan, viran edilməməsi üçün xarici müdaxilələrə qarşı daim hazır vəziyyətdə dayanmışlar. Vətən torpaqlarının bütövlüyü oğuz igidlərinin qanları, canları bahasına başa gəlmişdir. Onlar öz canlarını şüurlu surətdə vətən yolunda qurban verməyə hazırdırlar. Oğuz tərbiyəsi, oğuz analarının mətanət və iradəsi, saf, halal südü sayəsində ləyaqətli, vətənsevgili oğullar böyüyür, vətənin müdafiəsində dayanırdılar.

Əcdadlarımız vətənin, torpağın müqəddəsliyini, şərəf və ləyaqətini hər şeydən üstün tutmuşlar. Ağlı kəsən, əli silah tutan hər bir vətən övladı torpağını yağı düşməndən qorumağa borcludur. "Kitabi-Dədə Qorqud" dastanı da gənclərə məhz bu mənəvi keyfiyyətləri təlqin edir. Vətənpərvərlik keyfiyyətlərinin təzahürünü yalnız Oğuz oğullarının deyil, qızlarının, qadınlarının da şəxsində görürük. Bu da deməyə əsas verir ki, Oğuz qadınları və qızları da kişilərlə bərabər döyüşə girməyə vətənin müdafiəsində dayanmağa hazırdırlar. Əcdadlarımızdan miras qalan bu xüsusiyyətlər sayəsində bu gün Azərbaycan xalqı mərd oğullarının hünəri nəticəsində öz əzəli torpaqlarına qovuşdu. Azərbaycan Respublikasının ərazi bötüvlüyü bərpa edildi.

**Məqalənin aktuallığı.** Məqalədə toxunulan mövzu dövrümüzdə kifayət qədər aktualdır. Yeniyetmələrimizin, gənclərimizin tərbiyəsində dastanda olan milli-mənəvi dəyərlərimizi aşılamaq hər birimizin borcudur. Milli-mənəvi dəyərlərimiz bizim soykökümüzdür.

**Məqalənin elmi yeniliyi.** Məqalə elmi cəhətdən yeniliklərlə zəngindir, praktik əhəmiyyətə malikdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də doktorantlar yararlana bilərlər.

## Ədəbiyyat

1. Əfəndiyev P., Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı: Elm və təhsil, 2013.
2. Azərbaycan şifahi xalq ədəbiyyatı antologiyası. Bakı: Çaşıoğlu, 2004.
3. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2010.
4. Səmədov A.S. "Kitabi-Dədə Qorqud" dastanının tədqiqi və öyrənilməsi tarixindən. Bakı: Nurlan, 2003.
5. Kaşğari M. Divani lüğət-it Türk. Bakı: Ozan, III cild, 2006.
6. "Kitabi-Dədə Qorqud" ensiklopediyası: 2 cilddə, II cild, Bakı: Yeni nəşrlər evi, 2000.

**Ш.М. Надирова**

## Эпос «Китаби Дада-Горгуд» как один из наших национально-духовных памятников

## Резюме

«Китаби-Дада Горгуд» - один из «Огузname», отражающий легендарное и историческое прошлое огузов, прадедов азербайджанских тюрков. В «Китаби-Дада Горгуд», одном из величайших, самых великолепных и богатых источников национальной куль-

туры, созданных тюркскими народами, жизнь огузов - это любовь к деревне, родителям, братьям и сестрам, военным походам, обычаям и традиции, верования и встречи, аплодисменты и проклятия. Короче говоря, вся духовность нашла художественное выражение. «Китаби-Дада Горгуд» также является неиссякаемым источником педагогической науки.

Эпос «Китаби-Дада Горгуд» также имеет важное просветительское воздействие, отражая глубокую любовь и привязанность к традициям, народу, родине, народу.

**Sh.M. Nadirova**

## The epos "Kitabi Dada-Gorgud" as one of our national-spiritual monuments

## Summary

"Kitabi-Dada Gorgud" is one of the "Oguzname", reflecting the legendary and historical past of the Oguzes, the great-grandfathers of the Azerbaijani Turks.

In "Kitabi-Dada Gorgud", one of the greatest, most magnificent and rich sources of national culture created by the Turkic peoples, the life of the Oghuzs is the love of the village, parents, brothers and sisters, military campaigns, customs and traditions, beliefs and meetings, applause and curses, in short, all spiritualities have found artistic expression. "Kitabi-Dada Gorgud" is also an inexhaustible source of pedagogical science.

The epic "Kitabi-Dada Gorgud" also has an important educational impact, reflecting deep love and attachment to traditions, people, homeland, people.

**Redaksiyaya daxil olub:** 27.11.2020